**Nəcibə Qabil qızı HACIYEVA**
Bakı Dövlət Universitetinin «Beynəlxalq münasibətlər və iqtisadiyyat» fakültəsinin «Dünya İqtisadiyyatı» kafedrasının i.ü.f.d., baş müəllim

# AQRAR-SƏNAYE KOMPEKSİ ÜZRƏ ƏLDƏ OLUNAN MƏNFƏƏTƏ TƏSİR EDƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Məqalədə aqrar-sənaye kompeksi üzrə əldə olunan mənfəətə təsir edən amillərin qiymətləndirilməsi, aqrar sahənin iqtisadi inkişaf səviyyəsinin artırılması istiqamətində aparılan iqtisadi islahatlarla yanaşı, həlli vacib olan innovasiya tədbirlərinin iqtisadi əhəmiyyətinin təhlili verilmiş, eyni zamanda kənd təsərrüfatı sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyalar, ölkədə aparılan uğurlu inkişaf strategiyasında innovasiyanın rolu, o cümlədən bu sahədə son illər respublikamızda görülmüş işlər və gələcək üçün nəzərdə tutulmuş məsələlər geniş şərh olunmuşdur.

**Açar sözlər:** Aqrar-sənaye kompleksi, innovativ fəaliyyət, investisiya, rəqabətliliyyətlilik, rəqəmsallaşma, kənd təsərrüfatı.

**UOT:** 338
**JEL:** Q1, L7, L5
**DOI:** https://doi.org/ 10.54414/XSQD6273

## Giriş

Son illər ölkədə aparılan köklü islahatlar bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsindən də yan keşməmişdir. Belə ki, bu illər ərzində ölkəmizdə həyata keçirilən kompleks islahatların uğurla başa çatdırılması ölkə iqtisadiyyatının inkişafında müstəsna rol oynamışdır. Milli iqtisadiyyatın hərtərəfli inkişafı istehsalın və xidmətlərin səmərəliliyinin artırılması, bu sahədə keyfiyyətin yüksəldilməsi, müasir infrastruktur sistemlərinin yaradılması prosesi mühüm əhəmiyyət kəsb edir.

Qarşıya qoyulan strategiya, mövcud resursların tam və səmərəli istifadəsi əsasında aqrar sahədə geriliyin aradan qaldırılması eyni zamanda bu sahə üzrə resurs potensialını ardıcıl inkişaf etdirməklə yanaşı, yüksək artım templərinin davamlılığının saxlanılmasına yönəldilmişdir.

Aqrar sahə iqtisadiyyatın ən əhəmiyyətli sahələrindən biri olmaqla yanaşı kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Son illərdə rəqəmsallaşma və texnologiyaların sürətli inkişafı, kənd təsərrüfatında da bir çox yeniliklərə imza atıb. Bu yeniliklər nəticəsində, kənd təsərrüfatı məhsullarını artırmaq, effektivliyi yaxşılaşdırmaq və inkişaf etmə potensialını maksimum səviyyəyə çatdırmaq üçün yeni fürsətlər əldə edilmişdir.

Aqrar-sənaye kompleksində innovasiya siyasətinin həyata keçirilməsi, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsal prosesində tənzimləmə mexanizmlərinin formalaşması istiqamətlərini müəyyənləşdirən qanun və normativ sənədlərin hazırlaması və innovativ fəaliyyətə investisiya qoymaq üçün əlverişli şərait yaratmaq lazımdır.

İnnovasiya - iqtisadi inkişafı və rəqabətliliyyəti təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. İstehsalatda elmi-texniki tərəqqinin nailiyyətləri məhz innovasiyanın tətbiqi sahəsində formalaşır. İnnovasiya prosesləri elmin ayrı-ayrı sahələrində yaranıb istehsal sahəsində tamamlanaraq, keyfiyyətcə yeni dəyişiklərə səbəb olur. İnnovasiya texnika -texnologiyaya, həmdə istehsalatın və idarəetmənin təşkili formalarına aid edilə bilər. Belə ki, onlar arasında sıx qarşılıqlı əlaqənin olması istehsal gücünün inkişaf səmərəliliyinin artırılmasına gətirib çıxarır. İnnovasiya fəaliyyəti istehsalata və sosial sahəyə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq

etmək üçün investisiya fəaliyyətinin bir forması kimi həyata keçirilə bilər. Bütün inkişaf etmiş ölkələrin kənd təsərrüfatında innovasiya prosesləri bir daha onu təsdiq edir ki, dövlət təsiri nə qədər effektiv olarsa, ölkənin bu sahədə innovasiya inkişaf modeli bir o qədər səmərəli olar.

Dünyada gedən qloballaşma proseslərinin genişlənməsi ölkə iqtisadiyyatın bütün sahələrində olduğu kimi kənd təsərrüfatında rəqabətqabiliyyətlilik problemlərinin həllini daha da aktuallaşdırır. Ölkənin kənd təsərrüfatında rəqabət qabiliyyətli yüksək keyfiyyətli yerli məhsulların istehsalında innovativ texnologiyaların tətbiqi olduqca vacib məsələrdəndir. Belə ki, aqrar sahədə innovativ texnologiyaların tətbiqi nəticəsində kənd təsərrüfatınında mühüm nətəcələrin əldə olunmasına nail olmuş oluruq.

Aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatında innovativ yeniliklərin tətbiqi nəticəsində maksimum gəlir əldə edilməsi, səmərəliliyinin yüksəldilməsi, eyni zamanda aqrar sahənin iqtisadi inkişaf səviyyəsini və innovasiya potensialından səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir. Bütün bu deyilənlər nəzərə alınaraq aşağıdakı sxemdə ardıcıl istiqamətdə müəyyənləşdirilmişdir:




Sxem 1: Əldə olunan məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

İnnovasiya istehsalın səmərəliliyinin və məhsulun keyfiyyətinin ən vacib şərti olmaqla innovativ proseslərin xüsusiyyətlərini müəyyənləşdirərək istehsalın səmərəliliyinin artırılmasını təmin edən bir prosesdir. İqtisadiyyatın ən mühüm sahələrindən olan aqrar sahənin inkişafı baxımından texnoloji yeniliklərin tətbiqi və istehsalın modernləşdirilməsinin təşviqi ölkənin iqtisadi siyasətinin əsas istiqamətlərdən biri olmaqla, əsasən aşağıdakı istiqamətləri özündə əks etdirir:- kənd təsərrüfatını modernləşdirmək, yeniliklərin yaradılması və iqtisadiyyatda tətbiqi üçün effektiv sistem yaratmaq vəzifələrinin müəyyənləşdirilməsi, aqrar təsərrüfatçılıq subyektlərinin innovativ və texnoloji inkişaf proqramlarının hazırlanması.

Araşdırmalar göstərir ki, elmi əsasa söykənən innovativ inkişaf, ilk növbədə yeniliklərin yaranmasını və həyata keçirilməsini təmin edən

konstruktiv yaradıcı fəaliyyətdir. Deməli, innovativ inkişaf elmlə və elmi tədqiqatlarla bilavasitə əlaqəlidir.

Kənd təsərrüfatında innovativ fəaliyyət özünəməxsus xüsusiyyətlərə malikdir: kənd təsərrüfatında yeniliyin tətbiqi təkcə iqtisadi cəhətdən səmərəli deyil, həmçinin istehlakçıların sağlamlığını təmin etmək üçün həlledici amildir. Kənd təsərrüfatının istehsalı zamanı məhsuldarlığın artırılması zamanı istehsal texnologiyasının tətbiqi çox vaxt təbii amillərdən asılı olur. Belə ki, bitki və heyvanların müxtəlif ərazi və iqlim şəraitinə uyğunlaşmasının vacibliyi kənd təsərrüfatında innovasiyaların tətbiqi mexanizminə və yeniliyin stimullaşdırılmasına yönəlmiş müasir yanaşmaya ehtiyac olduğunu göstərir [4].

Aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatında innovativ inkişafı təmin etmək üçün aqrar sahənin innovativ fəaliyyətinin inkişafında ən səmərəli və zəruri metodları tətbiq etmək lazımdır.

Mühüm əhəmiyyət kəsb edən aqrar sektorun inkişafının prioritet istiqamətlərinin müəyyən edilməsi, eyni zamanda aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və innovativ tədbirlərin həyata keçirilməsi üçün əsas yaratmışdır. Məhz bu baxımdan aqrar sahənin hüquqi tənzimlənməsi ilk növbədə aqrar-ərzaq kompleksinin inkişaf strategiyasının, kənd təsərrüfatı ilə dövlət, eləcə də emal və tədarük subyektləri arasındakı münasibətlərin qanunvericilik təminatının formalaşdırılmasını özündə əks etdirir.

Ölkənin aqrar sektorunda bazar münasibətlərinin formalaşdırılması istiqamətində həyata keçirilən islahatlar və onun nəticələri, aqrar sektorda davamlı iqtisadi inkişafının təmini istiqamətində həyata keçirilən iqtisadi islahatlar aqrar sahənin tənzimlənməsinin hüquqi təminatı mexanizmi və onun təkmilləşdirilməsi məsələsi günün ən aktual məsələlərindəndir.

Ölkə iqtisadiyyatının aqrar sahəsində reallaşdırılan iqtisadi islahatların və davamlı inkişaf strategiyasının əsas istiqamətləri, həmçinin kənd təsərrüfatı sahəsinin müasir vəziyyəti hüquqi təminatının mövcud vəziyyəti, təkmilləşdirilməsi istiqamətləri aşağıdakı sxemdə öz əksini tapmışdır.




**Sxem 2: Əldə olunan məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.**

Müasir şəraitdə istehsal sahəsində innovativ texnologiyaların tətbiqi ölkə iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatında elmi nailiyyətlərin xüsusi rolunu müəyyənləşdirən ən vacib komponentlərindən biridir. Qeyd edək ki, kənd təsərrüfatı müasir şəraitdə bu sektora yönəldilən investisiya qoyuluşu ilə yanaşı, informasiya kommunikasiya

texnologiyaları (İKT)- nin inkişafından əsaslı surətdə asılıdır [6]. Bu baxımdan informasiya-kommunikasiya texnologiyaları məhsullarının idxalı, həmçinin İKT sektoru üzrə investisiya qoyuluşu da kənd təsərrüfatında iş və xidmətlərdən əldə olunan gəlirin artmasına təsir edərək, bu sektorun maliyyə-təsərrüfat fəaliyyətinin son göstəricisinin optimal formalaşmasında mühüm rol oynayır. Aşağıdakı qrafikdə statistik məlumatlara uyğun olaraq həmin göstəricilərin 2012-2022-ci illəri əhatə edən dövr üzrə məlumatlar əks edilmişdir.




**Qrafik 1. Aazərbaycanın kənd təsərüüfatı üzrə ümumi məhsulu. Kumulyativ investisiya qoyuluşu, mənfəəti və İKT sektoru üzrə məhsul idxalı və investisiya qoyuluşunun 2012-20222-ci illərdə dinamikası.**

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları**

Qrafikdən göründüyü kimi, kənd təsərrüfatı sahəsi üzrə əsas kapitala yönəldilmiş kumulyativ investisiyalar tədqiqat dövründə artan dinamikanı nümayiş etdirmişdir. Kumulyativ investisiyaların artması, bilavasitə bu kənd təsərrüfatının ümumi məhsul buraxılışının həcminin artmasını şərtləndirərək, bütün illərdə ümumi məhsul buraxılışının artmasına səbəb olmuşdur. Qeyd edək ki, bütün bunlarla yanaşı kənd təsərrüfatının inkişafında informasiya kommunikasiya texnologiyaları - (İKT) sektoruna yönələn investisiyalar və bu sektor üzrə məhsul idxalı iqtisadiyyatın digər sektorları ilə bərabər kənd təsərrüfatının inkişafını da artırmışdır. Nəticədə həmin amillər hesabına kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi ilə əmək məsuldarlığı artaraq bu sektor üzrə mənfəətin artmasına səbəb olmuşdur.

Qeyd edək ki, tədqiq olunan dövr üzrə kənd təsərrüfatı məhsullarının maya dəyərində baş verən dəyişilliklər bilavasitə mənfəətin dinamikasında da əsaslı dəyişikliklərə səbəb olmuşdur. Bu göstəricilər arasında sıx korrelyasiya asılılığı vardır. Aşağıdakı cədvəldən bunları daha aydın görə bilərik.

Cədvəl 1-dən göründüyü kimi Aazərbaycanın kənd təsərüüfatı üzrə ümumi məhsulu, kumulyativ investisiya qoyuluşu, informasiya kommunikasiya texnologiyaları - (İKT) sektoru üzrə məsul idxalı və investisiya qoyuluşu ilə mənfəəti arasında $Y = -0{,}042x_1 + 0{,}13x_2 + 0{,}054x_3 - 0{,}19x_4 - 510{,}865$ xətti reqressiya tənliyi ilə ifadə edilən yüksək korrelyasiya əlaqəsi vardır . Əlaqə tənliyindən göründüyü kimi kənd təsərrüfatı sahəsi üzrə əsas kapitala yönəldilmiş kumulyativ investisiyaların bir vahid artması mənfəətin 0,04 vahid azalması ilə nəticələnir [8].

**Cədvəl 1.**

**Azərbaycanın kənd təsərrüfatı üzrə ümumi məhsulu, kumulyativ investisiya qoyuluşu, İKT sektoru üzrə məsul idxalı və investisiya qoyuluşu ilə mənfəəti arasındakı asılılığın reqressiya analizi**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| ***Nəticələrin çıxarılması*** | | | | | | |
| | | | | | | |
| ***Reqressiya statistikası*** | | | | | | |
| ***R-Çoxlu*** | 0,901424 | | | | | |
| ***R-kvadrat*** | 0,812566 | | | | | |
| ***Normallaşdırılmış R-kvadrat*** | 0,662618 | | | | | |
| ***Standart səhv*** | 46,15209 | | | | | |
| ***Müşahidələr*** | 10 | | | | | |
| | | | | | | |
| ***Dispersiya analizi*** | | | | | | |
| | *df* | *SS* | *MS* | *F* | *F Əhəmiyyəti* | |
| Reqressiya | 4 | 46170,27 | 11542,57 | 5,419006 | 0,046107 | |
| Qalıq | 5 | 10650,08 | 2130,015 | | | |
| Ümumi | 9 | 56820,34 | | | | |
| | | | | | | |
| | *Əmsallar* | *Standart səhv* | *t-statistika* | *P-Dəyəri* | *Aşağı 95%* | *Yuxarı 95%* |
| Y-kəsişmə | -510,865 | 226,0266 | -2,2602 | 0,073333 | -1091,89 | 70,1548 |
| X1 | -0,04243 | 0,065238 | -0,65033 | 0,544174 | -0,21013 | 0,125274 |
| X2 | 0,130102 | 0,062192 | 2,09194 | 0,090676 | -0,02977 | 0,289971 |
| X3 | 0,05434 | 0,132585 | 0,409852 | 0,698884 | -0,28648 | 0,395159 |
| X4 | -0,1896 | 0,174971 | -1,08359 | 0,328012 | -0,63937 | 0,260181 |

**Mənbə: Qrafik 1 məlumatlarına əsasən müəllif tərəfindən MS EXCEL-də hazırlanmışdır.**

## Nəticə

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın kənd təsərrüfatı üzrə ümumi məhsulu kumulyativ investisiya qoyuluşu, informasiya kommunikasiya texnologiyaları (İKT) sektoru üzrə məhsul idxalı və investisiya qoyuluşu ilə bu sektorda yaranan mənfəət arasında olduqca yüksək korelyasiya asılılığı vardır.

Kənd təsərrüfatı sahəsi üzrə kumulyativ investisiya, İKT məhsullarının idxalı və kənd təsərrüfatı üzrə məhsul iş və xidmətlərdən əldə olunan mənfəətin həcminin azalması ilə nəticələnir. Kənd təsərrüfatı məhsul istehsalının həcminin artması və informasiya kommunikasiya texnologiyaları (İKT)- üzrə investisiya qoyuluşunun həcminin artması isə kənd təsərrüfatı sahəsi üzrə artmasına səbəb olur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 iyul tarixli Fərmanı.

2. “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi in- zibati ərazi vahidləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Res- publikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 20 aprel 2016-cı il. № 878. https://e-qanun.az/framework/32606

3. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inki- şaf Strategiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respub- likası Prezidentinin

Sərəncamı. Bakı şəhəri, 22 iyul 2022-ci il. № 3378. https://e-qanun.az/framework/50013

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi. https://www.agro.gov.az/az

5. "Azərbaycan Respublikasında Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı

6. Ataki.iyev M.C, Nurəliyeva R.N, Abbasova N.H. "İnvestisiya fəaliyyətinin təşkili" - dərslik, Bakı-2012, səh.254

7. Yadigarov T.A. "Gömrük statistikası və müasir informasiya texnologiyaları". (Monoqrafiya) Bakı, «Avropa» nəşriyyatı, 2020-520 səh

8. Yadigarov T.A. Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika. Bakı-2020. 352 səh.

**Наджиба Габиль к. ГАДЖИЕВА**
Ст.преподаватель кафедры «Мировая экономика» БГУ, д.ф.э.

## Оценка факторов, влияющих на прибыль, полученную по агропромышленном комплексе

### Резюме

В статье дана оценка факторов, влияющих на прибыль, полученную в агропромышленном комплексе (АПК), анализ экономической значимости инновационных мероприятий, которые наряду с экономическими реформами, проводимыми в направлении повышения уровня экономического развития аграрной сферы, а также инвестиций в основной капитал в сельскохозяйственной сфере, роль инноваций в успешной стратегии развития страны, в том числе в этой области, в последние годы в нашей республике проделанная работа и вопросы, намеченные на будущее, широко комментируются.

**Ключевые слова:** Агропромышленный комплекс, инновационная деятельность, инвестиции, конкурентоспособность, цифровизация, сельское хозяйство.

**NADJIBA Qabil HAJIYEVA**
PhD in Econ., Senior lecturer of "World Economy" department of "International relations and economy" faculty of Baku State University

## ASSESSMENT OF THE FACTORS İNFLUENCİNG THE PROFİT EARNED İN THE AGRO-İNDUSTRİAL COMPLEX

### Abstract

The article provides an assessment of the factors affecting the profit earned in the agro-industrial complex (AIC), an analysis of the economic significance of innovative measures, which, along with economic reforms carried out in the direction of increasing the level of economic development of the agricultural sector, as well as investments in fixed assets in the agricultural sector, the role of innovation in a successful development strategy of the country, including In this area, in recent years, the work done in our republic and the issues planned for the future have been widely commented on.

**Keywords:** Agro-industrial complex, innovation, investment, competitiveness, digitalization, agriculture.